# Vətən müharibəsinin "Görünməyən qəhrəmanlar"ı – sənədli filmlər silsiləsi

**Mədəniyyət Nazirliyi son bir il ərzində Vətən müharibəsinə həsr olunmuş 20-dən artıq müxtəlif metrajlı filmin istehsalına maliyyə dəstəyi göstərib. Bu filmlərin istehsalı həm dövlət studiyaları, həm də özəl prodüser mərkəzləri tərəfindən aparılıb.**




Mədəniyyət Nazirliyinin sifarişi ilə "Azərbaycanfilm" Kinostudiyasında "Görünməyən qəhrəmanlar" adlı sənədli filmlər silsiləsinin istehsalı davam edir. Filmlər hər biri 44 dəqiqə olmaqla müxtəlif qoşun növlərinin qəhrəman zabit və əsgər heyətinin 44 günlük müharibə müddətində keçdiyi şərəfli və müzəffər döyüş yolundan bəhs edir.

Seriyanın ilk filmi – "Görünməyən qəhrəmanlar: 27 sentyabr" Vətən müharibəsinin başladığı günün ildönümündə – sentyabrın 27-də İctimai Televiziyada (İTV) nümayiş olunub. Filmin rejissoru və ssenari müəllifi Seyran Mahmudoğlu, prodüseri Fariz Əhmədovdur.

5 filmdən ibarət olan silsilənin digər seriyaları müxtəlif qoşun növlərinin Vətən müharibəsi dövründəki fəaliyyətini əks etdirir. Filmlərdə şahidlər və müharibə qəhrəmanları real döyüş anlarını nəql edəcəklər, ekskluziv kadrlar göstəriləcək. Noyabr ayının əvvəlindən Zəfər Gününədək (8 Noyabr) bütün filmlər İTV-nin efirində yayımlanacaq.

Layihə Mədəniyyət Nazirliyinin dəstəyi ilə "Azərbaycanfilm" və İTV-nin birgə istehsalı ilə həyata keçirilir. Sənədli serialın prodüseri Fariz Əhmədovdur.

"Görünməyən qəhrəmanlar: 27 sentyabr" (rejissor: Seyran Mahmudoğlu, ssenari müəllifi: Seyran Mahmudoğlu).

"Görünməyən qəhrəmanlar: Hərbi Dəniz Qüvvələrinin xüsusi təyinatlıları" (rejissor: Seyran Mahmudoğlu, ssenari müəllifi: İdris Heydərli).

"Görünməyən qəhrəmanlar: Hərbi Hava Qüvvələri" (rejissor: Bəhruz Qədirov, ssenari müəllifi: Billurə Aslanova).

"Görünməyən qəhrəmanlar: Artilleriya" (rejissor: Ayşad Səfərəliyev, ssenari müəllifi: İdris Heydərli)

"Görünməyən qəhrəmanlar: Dövlət Sərhəd Xidməti" (rejissor: Seyran Mahmudoğlu, ssenari müəllifi: Esmira Bədəlova-Məmmədova).

Mədəniyyət Nazirliyi dəyərlərimizin kino vasitəsilə təbliği məqsədilə bu sahəyə dəstəyini davam etdirir.